

■ Gülnarə SADİQ

10 sentyabr 2016

www.kaspi.az

## AYRILIQ TƏNTƏNƏSİ

Ağır - ağır qovdular sevgimizi,
Asta - asta
iflasa uğratdılar
Göylərdə uçmaq varkən -
Yer altında sürüdülər,
Səni Şərqdə,
Məni Qərbə
dəfn etdilər...

tənhalığın müstəvisi
çəkildi,
Tıxandı ümidlərin nəfəsi

Gərilmiş həsrətlərin
Son nəğməsi tək,
Sadə sevgilərin şəninə
Ayrılıq təntənəsi çalındı,
Gözləri yaşardı dünyanın,
Buludlar baş-başa verib
Başladılar dünyanın gözündən axmağa...

## ALIN YAZIM

Bu gecəm də yarımçıqdı,
Öz - özümlə təkbətəkəm.
Kədər yaman əlaçıqdı,
Gərək onu qəlbə tikəm.

Günəş itib əllərimdə,
Əllərimin dərdindəyəm.
Alın yazım gözlərimdə,
Mən dünyanın tərsindəyəm.

Sil, aldığın illərimi,
Vur, yıxdığın yerdə dayan!
Ömrə bədəl günlərimi,
Yox etdiyin yerdə dayan!

Sabahımı kor etmişəm,
Qaranlıq da rəngbərəngdi.
Diləyimi kar etmişəm,
Ölüm ömürlə ahəngdi.

* * *

Çoxmu şey istəmişdim?!
Bir ümidin kölgəsində ürəyinə sığınarkən,
Bir sevdaya nəfəs verib
gözlərində dolanarkən?
Çoxmu şey istəmişdim? -
Varlığımı əmanət edəcək
Həyat dolu Səndən başqa?
Əlbəttə ki çox deyildi
Taleyimə yazılsaydın!

Eh! Çox miskin düşüncədir,
Buludlar utanır, yenə tər tökür -
Göydən başıma düşür,
Keçmişimin izləri...
Havadandı nədəndi?!
Dərd yaman ağır gəlir,
saxlamayır ürəyim.
Çox çətinmiş təkcə sevmək!
Yalqızların gözlərinə sığal çəkər
- ayrılığın son məktubu...
Otağımın hər küncü,
Daşlaşıbdı gözümdə
Öz evimdə udur məni gecələr
Bezibdi bu ünvan -
bu ürək...
Bu şəhərin yolları.
Gözlərimdə daralır -
Bir sevginin son ünvanı.
Gecələr dünənimə sarılıb
Sabahımı qaraldır...
Eh! Çox miskin düşüncədir,
Tək qadının yalqızlığa məhkumluğu!

Heç nə bildiyin kimi deyil,
Tanrıyla öz aramda
"O" adlı bir dünyam var.
Asılıb əksi ürəyimin otağında,
Qapısında "mən" adlı bir qadın ağlayır,
Səsini səndən gizlədir-
Gözünü tanrıdan,
Evinin bir küncündə
Tozlanıbdı ümidləri,

Heç nə bildiyin kimi deyil,
Tanrı eşqə qibtə edib,
Dolayıbdı taleyimə
Gəncliyin son anında,
Bir körpəcik sevda verib,

Heç nə bildiyin kimi deyil,
Tənhalığın portreti çəkilibdi
Sonsuzluğun ətəyində.
Yapışıbdı yaxasından -
Varlığıyla yoxluğunu
çəkişdirən qara bulud

## SƏSİMİ KƏSƏN SEVGİ

Nə ola, bu yollar dönə geriyə,
Sözüm nəfəsində ilişib qala.
Qayıdaq gözündən yağan gecəyə,
Əlin tellərimdə ilişib qala.

Sındıraq zamanı, dağıdaq vaxtı,
İz qoyaq yolunda sınmış ürəyin.
Bir duman içindən bir həsrət axsın,
Pozulsun sükutu hətta fələyin.

Səs salsın səsimi kəsən bu sevgi,
Bir ömür bu eşqdən sovuşub keçsin.
Diz çöksün içimə hopan göz yaşı,
Qoy ruhum ruhuna qovuşub bitsin.

## TƏSADÜF

Təsadüf sevginin zəruri dərdi,
Bəxtimin tərs gedən yollarındasan.
Yasaq ürəklərin odla nə fərqi?!
Günaha boy verən uçurumdasan.

Qəlbə eşq yolları közlə çəkilər,
Sıxar taleyimi qınaqlı bəxtim.
Həsrət böyüdükcə ümid kiçilər.
Yorar son baharı sazaqlı bəxtim.

## HƏSRƏTƏM

Bir damcı ümidə, damcı gülüşə,
Xəyalın içində közə həsrətəm.
Kələ-kötür olsun, cilasız olsun
Ürəyi göynədən sözə həsrətəm.

Bu dünyanı dünyasızlar uçurur,
Nəfsin alovundan iman qovrulur,
Hər gün o dünyaya ruhlar qovulur,
İmanla yumulan gözə həsrətəm.

Dərdini içinə bükür insanlar,
Astaca içini sökür insanlar,
İnsanın içində ölür insanlar
Xəyalllar içində eşqə həsrətəm.

Səslər qayalara çəkir ruhumu,
Əlində bir külüng əkir ruhumu,
Bu dağ, ürəyində əkir ruhumu!
Bitəcək çiçəyə, gülə həsrətəm.

